# “Azərbaycanın multikultural siyasəti, əqli mülkiyyət və erməni saxtakarlıqları” mövzusunda konfrans keçirilib

**Aprelin 22-də Bakıda Müəllif Hüquqları Agentliyinin (MHA) təşkilatçılığı ilə Dünya Kitab və Müəlliflik Hüququ Gününə, Beynəlxalq Əqli Mülkiyyət Gününə həsr olunan “Azərbaycanın multikultural siyasəti, əqli mülkiyyət və erməni saxtakarlıqları” mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının, nazirliklərin, beynəlxalq təşkilatların nümayəndələri, ali məktəblərin rektorları iştirak ediblər.

Konfransda MHA-nın sədri Kamran İmanov giriş sözü ilə çıxış edib.

Bildirilib ki, aprelin sonu kitab, müəlliflik hüququ və əqli mülkiyyətə aid xüsusi günlərlə əlamətdardır. Aprelin 23-ü UNESCO-nun təsis etdiyi Dünya Kitab və Müəlliflik Hüququ Günüdür. Azərbaycanda bu gün 1997-ci ildən qeyd olunur. Aprelin 26-sı isə Dünya Əqli Mülkiyyət Təşkilatının (DƏMT) Beynəlxalq Əqli Mülkiyyət Günüdür. Müəllif Hüquqları Agentliyi bu günü 16 ildir ki, (2001-ci ildən) qeyd edir. Həmin günlərdə keçirilən müxtəlif tədbirlərin, görüşlərin, “dəyirmi masa”ların, konfrans və simpoziumların əsas məqsədi əqli mülkiyyət, müəllif-hüquq mədəniyyətinin formalaşdırılmasına dəstək vermək, biliklər cəmiyyətində əqli mülkiyyətin kreativlik və yenilikçilik amillərinin stimullaşdırılmasında əvəzedilməz əhəmiyyətini diqqətə çatdırmaqdır.

K.İmanov deyib: Bu il Azərbaycan üçün çox əlamətdardır. Prezident İlham Əliyev 2016-cı ili ölkədə “Multikulturalizm ili” elan edib. Müasir multikultural cəmiyyətin formalaşmasına yönəldilən və Azərbaycan dövlətinin başçısının iradəsinə əsaslanan siyasi qərarlar, Azərbaycan xalqının əsrlər boyu qaynaqlanan tolerantlıq ənənəsi hazırda “multikulturalizmə alternativ yoxdur” fikrini formalaşdırıb. Odur ki, bugünkü konfransda multikultural siyasətin əqli mülkiyyətin inkişafına, müəlliflik hüququnun qorunmasına danılmaz təsirini və əhəmiyyətli dəstəyini qabarıq şəkildə göstərməyə çalışacağıq. Çünki multikultural siyasət fərdi kreativliyi (müəlliflik, patent hüququ) və qrup kreativliyini (folklor, ənənəvi biliklər) stimullaşdırır, inkişaf etdirir və qoruyub saxlayır.

Əqli mülkiyyət hüquqları və mədəni hüquqlar bir çərçivədədir. “İnsan hüquqları haqqında” Ümumi Bəyannaməyə (27 maddə) və həmçinin Beynəlxalq Billin “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” Pakta (15 maddə) əsasən, əqli mülkiyyət mədəni hüquqların tərkib hissəsidir. Mədəni hüquqlar isə mədəni müxtəlifliyi dəstəkləyir və inkişaf etdirir, bununla da muktikultural siyasətin vacib atributuna çevrilir. Heç də təsadüfi deyil ki, bunlar UNESCO-nun və DƏMT-in əlamətdar günləri ilə bağlı şüar və devizlərində səslənir.

“Müəlliflər, yazdıqları kitablar hər birimizin səsinin eşidildiyi ümumi gələcək uğrunda bəşəriyyətin birgə keçmişi, tarixi və mədəni irsi olan ailəyə birləşməsinin dəstək verənləridir”. Bu, UNESCO-nun bəyanatındandır.

“Mədəniyyət əsərləri çoxdan sərhədləri aşıb. Wi-Fi erası isə mədəniyyət əsərlərinin yaradılması, yayılması və mili sərhədlərdən çox-çox uzaq bazarlarda istehlak olunmasını dəyişdirib, hər bir müəllif, hüquq sahibinin sonsuz sayda qlobal əməkdaşlıq imkanlarını yaradıb”. Bu isə DƏMT-ın bəyannaməsində bildirilir.

Göründüyü kimi, hər iki bəyannamə istər kitabın timsalında, istərsə də əqli mülkiyyət obyektləri nümunələrində sərhədsiz dünya və qloballaşan bəşəriyyətdə ayrı-ayrı mədəniyyətlərin səsinin çatdırılmasını, onların unikallığını və müxtəlifliyini təsbit edir, əqli nəticələrə hörmət və ehtiramla yanaşmanın prioritet məqsəd olduğunu irəli sürür.

MHA-nın sədri vurğulayıb ki, bugünkü konfransda Ermənistanın mədəni hüquqlar “modelinə” toxunulacaq. Başqalarının mədəni müxtəlifliyini inkar edən, onların mədəni hüquqlarını, insan haqlarını tanımayan və aqressiv yanaşan bu monoetnik dövlətdə yeganə olan öz etnosunun hüquqlarını absurd dərəcədə şişirdən erməniçilik siyasətindən də söhbət açacaq, “Erməniçilik digər xalqların hüquqlarına xələl gətirir” mövzusunda təqdimatla tanış olacağıq.

Ermənistanın siyasətinin sütunlarında siyasi mifologiya, digər xalqların torpaqlarına və mədəni irsinə iddialar, etnik təmizləmə və ksenofobiya durur. Eyni zamanda, bu millətin “əzabkeşliyi”, “müstəsnalığı” və “xüsusi missiyası” təbliğ olunur.

Bunların illüstrasiyası Dünya “World Values” elmi layihəsindəki rəqəmlərdir (UNESCO). Layihəyə əsasən, dünyanın 76 ölkəsində yaşayan fərdlər seçim edərək, öz identikliyini (məxsusluğunu) icma, ölkə və dünya üzrə coğrafi qrupların birində müəyyənləşdiriblər. Buradan aydın olur ki, Azərbaycan kimi yüksək milli-vətəndaşlıq (ölkə) və ümumbəşəriliyi (dünya) yüksək olan və eyni zamanda, kiçik etnik-regional (icma) identikliyə malik ölkə tapmaq mümkün deyil. O ki qaldı Ermənistana, burada ən yüksək icma-etnik identiklik və ən aşağı “dünya” mövcuddur. Bu, təbiidir.

Ermənilərin neqativ sxem əsasında qurulan identikliyi digərlərinin qrupunu inkar edir, öz seçimini onlara qarşı qoyur, qalanlarına yadellilər münasibəti bəsləyir və adətən digərlərinin qrupuna qarşı aqressiv çıxış edir. Erməniçilik öz identiklik qrupunu digərlərinə qarşı müxalif nöqteyi-nəzərindən təsəvvür edərək, “müstəsnalığını”, “xüsusiliyini” qabardaraq, nəticə etibarilə özünü “izolyasiya” edir və digərlərinə qarşı etnik təmizləməni tətbiq edir.

Sonra K.İmanov “Erməni saxtakarlıqları digər xalqların hüquqlarına xələl gətirir” mövzusunda geniş təqdimatla çıxış edib.

Təqdimatda keçmişdə və son illər kitabları dərc edilən erməni müəlliflərə istinadən, onların tarixi, coğrafi, genetika ilə bağlı həqiqətə uyğun olmayan mülahizələri, uydurmaları və saxtakarlıq faktları göstərilir, bütün bunlar elmi dəlillərlə ifşa olunur, DNK-analizinin nəticələrinə əsaslanan mövcud həqiqətlər və identikliklə bağlı sorğu nəticələri açıqlanır. Bununla yanaşı, göstərilir ki, həmin erməni müəlliflərinin uydurmaları və saxtakarlıqları o qədər də zərərsiz deyil: yalan olmaqla yanaşı, həm də başqalarının şərəf və ləyaqətinə toxunur, intellektinə, əqli mülkiyyətinə və mədəniyyətinə qəsd edir, dövlətçiliyinin tarixinin və ənənəsinin şübhə altında saxlanılmasına yönəldilir. “Odur ki, erməni saxtakarları ifşa olunub və ifşa olunacaq”.

Mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev, UNESCO üzrə Azərbaycan Milli Komissiyasının müşaviri Gülnarə Ağalarova kitab, müəlliflik hüququ və əqli mülkiyyətə həsr olunan günlərin keçirilməsinin əhəmiyyətindən danışıb, Müəllif Hüquqları Agentliyinin fəaliyyətini yüksək dəyərləndiriblər.

Daha sonra agentliyin eksperti Elşad Əlili “Ararat mifologiyası və onun erməni tarixçiliyində rolu barədə” mövzusunda məruzə ilə çıxış edib.

Mövzular ətrafında müzakirələr aparılıb, təkliflər bildirilib.

**AZƏRTAC**